**SEÇKİLƏRİN MONİTORİNQİ VƏ DEMOKRATİYANIN TƏDRİSİ MƏRKƏZİ**




# BMT-NİN İNSAN HÜQUQLARI ŞURASININ UNİVERSAL DÖVRİ İCMAL MEXANİZMİ ÜZRƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ TƏŞKİLATLARI ÜÇÜN

## MƏLUMAT TOPLUSU

SMDT_EMDS AZEelections www.smdtaz.org

SMDT

**Bakı-2023**

## I. Giriş

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin tərtib etdiyi bu material BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal (UDİ) prosesinə vətəndaş cəmiyyəti təşkilatlarının təqdimatlarının hazırlanmasına yardım məqsədi daşıyır.
Xatırladaq ki, BMT İnsan Hüquqları Şurasının Universal Dövri İcmal (UDİ) mexanizmi 2006-cı ildə yaradılmış və BMT-yə üzv dövlətlərinin insan hüquqlarına dair vəziyyətinin nəzərdən keçirilməsini nəzərdə tutan unikal prosesdir. BMT-yə üzv olan dövlətlər hər 5 ildən bir bu prosesə cəlb edilərək, təqdim etdiyi Milli hesabat əsasında insan hüquqlarının vəziyyətinə dair İnsan hüquqları Şurasında müzakirə və dəyərləndirməyə töhfə verir.
Qeyd edək ki, Azərbaycanla bağlı İnsan Hüquqları Şurasında UDİ çərçivəsində növbəti - dördüncü dönəm dəyərləndirmə 6-17 noyabr 2023-cü ildə baş tutacaq. Bu tarixədək, Azərbaycan hakimiyyəti müvafiq Milli Hesabatı 7 avqust 2023-cü ilədək təqdim etməlidir. Eyni zamanda, digər maraqlı tərəflər, o cümlədən vətəndaş cəmiyyəti təşkilatları UDİ kriteriyalarına uyğun şəkildə fərdi və kollektiv təqdimatları 5 aprel 2023-cü ilədək tqədim edə bilərlər.
SMDT bu material vasitəsilə vətəndaş cəmiyyəti təmsilçilərini UDİ üçün təqdimatların hazırlanması şərtləri, metodologiya, məlumatların toplanması və işlənməsi, tövsiyələrin hazırlanması qaydaları barədə daha ətraflı məlumatlandırmaq niyyətindədir.

Bu toplunun hazırlanmasında BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlıq ofisi və BMT-nin İnsan hüquqları Şurasının materiallarından istifadə olunub.

## II. Universal Dövri İcmal nədir?

Universal Dövri İcmal (UDİ) BMT-nin İnsan Hüquqları Şurasının himayəsi altında icra olunan prosesdir. BMT-yə üzv olan hər bir dövlət bu proses çərçivəsində öz ölkəsində insan hüquqları ilə bağlı vəziyyəti yaxşılaşdırmaq və insan hüquqları ilə bağlı öhdəliklərinin icrası üçün görülən işləri təqdim etmək imkanı əldə edir.
UDİ hər bir ölkədə insan hüquqları üzrə vəziyyəti qiymətləndirmək üçün bərabər şəraitin təmin edilməsini nəzərdə tutur. Bu mexanizmin son məqsədi BMT-yə üzv olan bütün ölkələrdə insan hüquqlarının vəziyyətini yaxşılaşdırmaq və insan hüquqları pozuntularının baş verdiyi yerdə aradan qaldırmaqdır. Hazırda, beynəlxalq səviyyədə UDİ-dən başqa belə universal mexanizm mövcud deyil.

## UDİ çərçivəsində insan hüquqlarının dəyərləndirilməsi 3 mənbəyə əsaslanır:

a) BMT-yə üzv dövlətin təqdim etdiyi Milli Hesabat;
b) BMT-nin müvafiq ölkə üzrə qrupları və BMT qurumlarının təqdim etdiyi məlumatlar;
c) Maraqlı tərəflərin təqdimatlarının xülasəsi (milli insan hüquqları institutları, vətəndaş cəmiyyəti təşkilatları və regional insan hüquqları mexanizmləri tərəfindən təqdim edilən məlumatlar);

## UDİ çərçivəsində insan hüquqlarının dəyərləndirilməsi aşağıdakı sənədlərə əsaslanır:

a) Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi;
b) Ümumdünya İnsan Hüquqları Bəyannaməsi;
c) Dövlətin iştirakçısı olduğu insan hüquqları sənədləri;
d) İnsan Hüquqları Şurasına seçilmək üçün öz namizədlərini təqdim edərkən qəbul edilənlər də daxil olmaqla, dövlətlərin verdiyi könüllü vədlər və öhdəliklər;
e) Tətbiq olunan beynəlxalq humanitar hüquq.

İnsan Hüquqları Şurasının 16/21 saylı (12 aprel 2011-ci il) qətnaməsi müəyyən edir ki, UDİ çərçivəsində insan hüquqlarının vəziyyətinə dair təhlil qəbul edilmiş tövsiyələrin həyata keçirilməsinə və nəzərdən keçirilən dövlətdə insan hüquqlarının vəziyyətinin inkişaflarına diqqət yetirməlidir. Buna görə də, müvafiq maraqlı tərəflər öz təqdmatlarında əvvəlki dönəmdə vəziyyətin yekunu, eləcə də əvvəlki dəyərləndirmələr zamanı müzakirə olunmayan məsələlər haqqında məlumatları daxil etməyə təşviq olunurlar.

UDİ üzrə araşdırmalar İnsan Hüquqları Şurasının İşçi Qrupları vasitəsilə həyata keçirilir. BMT-nin İnsan Hüquqları Şurasının tərkibi 47 dövlətdən ibarətdir. Şuranın üzvü olan ölkələr UDİ üzrə müzakirə olunan ölkənin Milli Hesabatının qiymətləndirlməsində, suallar və ya tövsiyələrin verilməsində iştirak edirlər.
UDİ üzrə İşçi Qrup ildə üç dəfə Cenevrədə (İsveçrə) sessiylar təşkil edir və bu sessiyaları BMT-nin Veb Yayımı vasitəsilə onlayn izləmək mümkündür.

UDİ üzrə müzakirə olunan ölkə ilə bağlı alınan bütün tövsiyələr İşçi Qrupun hesabatına daxil edilir, sessiyanın sonunda dərc edilir. UDİ üzrə baxışa cəlb olunan dövlət təqdim edilən bütün tövsiyələrə münasibət bildirməli, ya dəstəklədiyini, ya da müvafiq qeydini ifadə etməlidir.

## III. UDİ üçün təqdimatların hazırlanması

Vətəndaş cəmiyyəti təşkilatları UDİ üçün təqdimatlar hazırlayarkən, BMT-nin İnsan Hüquqları Şurasının tərtib etdiyi qaydalara əməl etməklə mükəmməl sənədlərin göndərilməsinə nail ola bilərlər.

### a) Məzmun

Təqdimatlar nəzərdən keçirilən dövlətdə insan hüquqlarının vəziyyəti ilə bağlı etibarlı məlumatlar ehtiva edilməli, narahatlıq doğuran əsas problemlər, qabaqcıl təcrübələr və bununla bağlı tövsiyələr vurğulanmalıdır.
Maraqlı tərəflərdən aşağıdakılara uyğun olaraq yazılı təqdimatlar təqdim etmək tövsiyə olunur.
İnsan Hüquqları Şurasının müvafiq qətnamələri işığında, UDİ üçün xüsusi olaraq hazırlanmış son baxışdan bəri inkişaf və tövsiyələrin icrasına dair qiymətləndirmə və şərhlər daxil olmaqla, əvvəlki baxışların təqibinə dair məlumatları ehtiva edən təqdimatlara üstünlük veriləcək. Təqdimatlar narahatlıq doğuran əsas məsələləri vurğulamalı, mümkün tövsiyələri və ən yaxşı təcrübələri müəyyən etməlidir. Maraqlı tərəflərə, xüsusilə 3-cü dövrədə verilən tövsiyələrlə əlaqəli olaraq, icraya dair məlumatı daxil etmək tövsiyə olunur.

Təqdimatlar məqsədyönlü və analitik olmalı, vəziyyətin hərtərəfli təhlilinə əsaslanan nəticələr, nailiyyətlərin qısa formalaşdırılması, qalan narahatlıqlar və tövsiyələr təqdim edilməlidir. Təqdimatlar əvvəlki dövrlərdən gələn tövsiyələrə və onların necə həyata keçirildiyinə dair hesabatlara üstünlük verməlidir.

Əvvəlki tövsiyələrin yerinə yetirilməsi ilə bağlı şərhlərdə bu tövsiyələrlə bağlı icra səviyyəsinin qiymətləndirilməsi verilə bilər - məsələn, “tam icra olunub”, “qismən icra olunub”, “həyata keçirilməkdə” və ya “hələ həyata keçirilməyib”. Dövlətlər və ya digər qurumlar tərəfindən həyata keçirilmiş milli fəaliyyət planları və digər sənədlərə istinad oluna bilər.

Maraqlı tərəflər konkret və həyata keçirilə bilən tövsiyələr verməyi və müvafiq hallarda əvvəlkiləri təkrar etməyi düşünməlidirlər. Bu tövsiyyələr - xüsusi, ölçülə bilən, əldə edilə bilən, nəticəyönlü, zamanlı və əsas təqdimatda göstərilən mövzularla əlaqələndirilir.

Əvvəlki dövrlərdəki tövsiyələrin icrasına istinad edərkən, hər bir tövsiyənin (İnsan Hüquqları Şurası hesabatı, dövr, paraqraf nömrəsi, tövsiyə nömrəsi və tövsiyə edən ölkə) aydın müəyyənləşdirilməsi təşviq edilir.
Tematik qruplaşdırılmış tövsiyələrin matrisi İHAK UDİ-in ölkə saytında yerləşdirilmişdir. Müvafiq maraqlı tərəflər əvvəlki tövsiyələrin icrasına dair məlumatı matrisə əlavə etməyi faydalı hesab edə bilərlər. Matris əsas töhfəyə əlavə kimi təqdim edilə bilər (onun daxil edilməsi söz sayına əlavə edilməyəcək). Nəzərə alın ki, onun məzmunu Maraqlı Tərəflərin Təqdimatlarının Xülasəsində qeyd edilməyəcək. Matrisanın təqdim edilməsi maraqlı tərəfin təqdim etdiyi əsas töhfəni əvəz etməməlidir.
Təqdim olunan məqalələr təhqiramiz ifadələrdən ibarət olmamalıdır, sözlərin say həddinə uyğun olmalı, müəyyən edilmiş müddətdə və tələb olunan formatda təqdim edilməlidir.

## b) Praktik təkliflər

Birinci mənbədən məlumat, həmçinin maraqlı tərəfin öz mülahizələri və təhlilinin nəticələrinə üstünlük verilməlidir.
Birləşmiş Millətlər Təşkilatının orqanlarına/agentliklərinə və/və ya onların məlumatlarına istinad edərkən, maraqlı tərəflər mümkün qədər bütün ratifikasiya müqavilələrini siyahıya salmamağa və ya insan hüquqları müqaviləsi orqanlarının tövsiyələrini köçürməməyə çalışmalıdrlar.

Maraqlı tərəflərə bütün vacib məlumatları əsas təqdimetmə sənədinə daxil etmək tövsiyə olunur.
Maraqlı tərəflər vəziyyəti daha yaxşı başa düşmək üçün əlavə məlumat vermək və ya təqdimatda qeyd olunan əhəmiyyətli məsələni dəstəkləmək məqsədilə əlavələr təqdim edə bilərlər.
Digər təşkilatların hesabatları, şəkillər, xəritələr və illik hesabatlar əlavə kimi təqdim edilməməlidir.

## c) Format

**Sənəd formatı** - Yalnız word sənədlərinin istifadəsi - Yazılı (əsas) təqdimatlar yadda saxlanılmalı və yalnız Word sənədi kimi təqdim edilməlidir. Əlavələrin PDF kimi digər formatları da ola bilər.

**Aidiyyət** - Yazılı təqdimatlar aydın şəkildə müəyyən edilə bilən olmalıdır. Əsas təqdimatın üz qabığında təqdim edilən maraqlı tərəf aydın şəkildə müəyyən

edilməlidir (blank, ad və abbreviatura, loqo, veb-səhifə, e-poçt və poçt ünvanı və s.). Birgə təqdimatlarda əsas təşkilat, ardınca digər təqdim edən təşkilatlar aydın şəkildə göstərilməlidir. Birgə təqdimatlar üçün təşkilatların siyahısı üz qabığında və sənədə əlavədə göstərilməlidir. Əlavədə, həmçinin hər bir təşkilat üçün tam ünvanlar və əlaqədər şəxslərin adı olmalıdır. Dövlət strukturuna daxil olan qurumlar öz fikirlərini Milli Hesabatın bir hissəsi kimi təqdim etməlidirlər.

Təşkilatın/koalisiyanın əsas fəaliyyət istiqamətlərinin qısa təsviri (söz sayına daxil edilmir) - Təqdim edən təşkilatın/koalisiyanın əsas fəaliyyət istiqamətlərini, o cümlədən yaradılma tarixini, xüsusən də koalisiyanın fəaliyyətini təsvir edən paraqraf. UDİ kontekstində ilk dəfə qarşılıqlı fəaliyyət göstərən təşkilatların da üz qabığına daxil edilməsi tövsiyə olunur.

**Uzunluq** – Fərdi yazılı təqdimatlar 2815 sözdən çox olmamalıdır (əlavə sənədlər bu məhdudiyyətə daxil deyil). Birgə təqdimatlar 5630 sözdən çox olmamalıdır. Ön (qapaq) səhifə, son qeydlər və əlavələr tqədimatların söz/səhifə məhudiyyəti daxilində sayılmayacaq. Təqdimata əlavələr ayrıca təqdim edilməli və yüklənməlidir.

**İstinad üçün qeydlərdən istifadə** - Maraqlı tərəflər yalnız məlumatlara istinad etmək üçün sonda qeydlərdən istifadə etməlidirlər. İcmalda nəzərə alınmayacağı üçün son qeydlərdə heç bir əsas məlumat daxil edilməməlidir.

**Paraqrafların və səhifələrin nömrələnməsi** - İstinadın asanlığı üçün paraqraflar və səhifələr həmişə nömrələnməlidir.

**Dil** - Yazılı töhfələr yalnız BMT-nin rəsmi dillərindən birində, əsasən də ingilis, fransız və ya ispan dillərində təqdim edilməlidir.

**Metodologiya** - Maraqlı tərəflərə UDİ təqdimatlarının hazırlanması üçün milli səviyyədə bir-biri ilə məsləhətləşmələr tövsiyə olunur. Maraqlı tərəflər oxşar xarakterli məsələlərə diqqət yetirdikdə, birgə təqdimatlar göndərməsi tövsiyyə olunur.

### d) Məxfilik

UDİ mexanizmi məxfiliyi nəzərdə tutmur və açıq sənədlər əsasında aparılır. Yuxarıda qeyd olunan qaydalara riayət edən təqdimatlar, ilkin olaraq qəbul edildiyi kimi, təqdim edən maraqlı tərəfin adı da daxil olmaqla, BMT-nin UDİ prosesində iştirak edən dövlətlərlə bağlı internet səhifələrində ictimaiyyətə açıqlanacaq.

Ayrı-ayrı işlərə istinad yalnız o halda aparılmalıdır ki, bütün aidiyyəti şəxslərin təhlükəsizliyi və rifahı belə bir arayış nəticəsində zərər çəkməsin. Uşaqları və ya cinsi zorakılıq qurbanlarını müəyyən edən, yaxud müəyyən etməyə icazə verən təqdimatlar istisna ediləcək.

Fərdi situasiyalara diqqət yetirən təqdimatlar və petisiya kimi təqdimatlar qəbul edilməyəcək. Fərdi məlumatlarla bağlı BMT-nin müvafiq insan hüquqları mexanizmlərinə ünvanlanmalıdır. Maraqlı tərəflər ölkənin ümumi vəziyyəti ilə əlaqəli olduqda və ya ümumi praktikanı nümayiş etdirdikdə, yaxud bu cür fərdi hal simvolik olduqda yalnız müstəsna hallarda fərdi vəziyyətlərə istinad edə bilərlər.

## IV. Azərbaycan üzrə UDİ çərçivəsində təqdimatların göndərilməsi

Azərbaycanla bağlı İnsan Hüquqları Şurasında UDİ çərçivəsində növbəti - dördüncü dönəm dəyərləndirmə 6-17 noyabr 2023-cü ildə baş tutacaq. Bu tarixədək Azərbaycan hakimiyyəti müvafiq Milli Hesabatı 7 avqust 2023-cü ilədək təqdim etməlidir.
Eyni zamanda, digər maraqlı tərəflər, o cümlədən vətəndaş cəmiyyəti təşkilatları UDİ kriteriyalarına uyğun şəkildə fərdi və kollektiv təqdimatları ***5 aprel 2023-cü ilədək*** təqdim edə bilərlər.
Qeyd edək ki, müəyyən edilmiş vaxtdan sonra qəbul edilmiş təqdimatlar nəzərə alınmayacaq.

Maraqlı tərəflərin təqdimatları yalnız aşağıdakı linkdə mövcud olan UDİ sənədləri üçün "Online UDİ Qeydiyyat Sistemi" vasitəsilə göndərilməlidir: https://uprdoc.ohchr.org

Verilənlər bazası üçün texniki təlimat aşağıdakı linkdə mövcuddur:

https://www.ohchr.org/en/hrbodies/upr/pages/ngosnhris.aspx

UDI üzrə təqdimat göndərən təşkilatlardan onlayn sistemdə təşkilati profilin açılması tələb olunur. Təşkilat profilinin təsdiqi 24 saata qədər çəkə bilər. Profil yaradıldıqda, təsdiq edildikdə və töhfələr təqdim edildikdə avtomatik mesajlar göndərilir.
Təqdimat göndərən təşkilatlar bir sessiya çərçivəsində fərdi və birgə təqdimatı göndərə bilər, eyni zamanda hər bir ölkə üzrə bir neçə birgə təqdimatda töhfəverən təşklat kimi iştirak edə bilər. Koalisiyalar adından birgə təqdimatların verilməsində iştirak edən bütün təşkilatlar siyahıya alınmalı və əsas təqdim edən təşkilat aydın şəkildə müəyyən edilməlidir.

Katiblik tərəfindən istifadə edilən bütün təqdimatlar Xülasə hesabatında qeyd olunacaq və UDİ-yə cəlb olunan dövlətlə bağlı internet səhifələrində yerləşdiriləcək. Birgə təqdimatlar UDİ sənədlərində "Birgə təqdimatlar" adlandırılacaq və nömrə ilə, habelə Koalisiyanın adı və/və ya koalisiyanın bir hissəsini təşkil edən təşkilatların siyahısı ilə müəyyən ediləcək.

### Təqdimat göndərən təşkilatlar aşağıdakıları təqdim edə bilərlər:

(a) Ön məktubu/səhifə;
(b) bir əsas təqdimat sənədi (BMT-nin rəsmi dillərindən birində);
(c) maksimum 10-dək əlavələr;

Onlayn sistemdə təqdimat sənədləri yükləndikdən sonra təşkilatlar onların təqdim olunması barədə elektron məktub alacaqlar. Təşkilatlar istənilən vaxt onlayn sistemdə öz töhfələri tarixçəsinə də müraciət edə bilərlər. Ancaq Şuranın katibliyi sonradan hər hansı əlavə təsdiq məktubu göndərməyəcək.
Onlayn sistemdə təşkilatlara ilkin təqdimatın avtomatik təsdiqi alındıqdan sonra ölkə üzrə sənədlər əlavə etməyə icazə verilmir. Əlavə sənədlər (məsələn, əsas təqdimatların tərcümələri, əhatə məktubları və ya əlavələr) e-poçt vasitəsilə UDİ Təqdimat Xidmətinə göndərilməlidir.
Təşkilatlar onlayn sistemdən istifadə zamanı texniki çətinliklərə dair UDİ təqdimatları üzrə xidmətin bu e-poçt ünvanına müraciət edə bilər: ohchr-uprsubmissions@un.org

## V. Təqdimatlardan sonra mümkün fəaliyyət

Hər bir təşkilat ayrıca və ya koalisiya şəklində təqdimatlarını UDİ çərçivəsində göndərdikdən sonra BMT-nin İnsan Hüquqları Şurasında müvafiq UDİ dönəmi üzrə sessiyanı müşahidə edə, üzv dövlətlərlə öz təqdimatlarının dəstəklənməsi yönündə görüşlər və müzakirələr təşkil edə bilər.

İnsan Hüquqları Şurasının iclaslarında iştirak üçün Vətəndaş Cəmiyyəti Qrupları bu quurmun katibliyinə müraciət edərək əlavə məlumat ala bilər: ohchr-hrcngo@un.org

Həmçinin Vətəndaş cəmiyyəti təşkilatları öz təqdimatlarını göndərdikdən sonra iki il müddətində dövlətlərin UDİ üzrə Aralıq hesabatlarının qəbul edilməsi tarixinə uyğun olaraq, ilin birinci yarısından tez olmayaraq onlayn şəkildə təqdim edilə bilər. Bu barədə daha ətraflı məlumatı müvafiq veb səhifədən əldə etmək olar:

https://www.ohchr.org/en/hr-bodies/upr/upr-implementation

Aralıq hesabatlar üçün xüsusi formatlar, söz məhdudiyyətləri və ya son tarixlər yoxdur. Bu hesabatlar müvafiq dövlətin UDİ çərçivəsində üzərində götürdüyü öhdəliklərinin icrasını dəyərləndirmək məqsədilə hazırlana, tövsiyyələr irəli sürülə, o cümlədən yeni ortaya çıxan problemləri gündəmə gətirmək üçün irəli sürülə bilər.

Vətəndaş cəmiyyəti təşkilatları UDİ çərçivəsində dövlətin üzərinə götürdüyü öhədliklərin icrasına hökumətləri təşviq etmək üçün ictimai müzakirələr təşkil edə, dövlət qurumları, parlament və siyasi partiyalarla müxtəlif görüşlər və məsləhətləşmələr apara bilərlər. Bununla da UDİ üzrə götürülən öhdəliklərin icrasında vətəndaş nəzarətinin artırılmasını təmin edə bilərlər. Bu prosesdə ictimai məlumatlılığı artırmaq məqsədilə media kampaniyaları həyata keçirilə, ölkədəki səfirliklər, BMT və digər beynəlxalq qurumların iştirakı ilə öhdəliklərin icrası ilə bağlı yeniliklər müzakirə oluna bilər.

## VI. Əlavə sənədlər və əlaqə məlumatları

Aşağıdakı mənbələr vasitəsilə UDİ mexanizmi vasitəsilə daha ətraflı məlumatlar əldə edə bilərsiz:

UDİ əsas internet səhifəsi:
http://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/UPRMain.aspx.

Vətəndaş cəmiyyəti təşkilatları və milli insan hüquqları institutları üçün məlumat səhifəsi:
http://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/NgosNhris.aspx

UDİ barədə faktlar: https://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/BasicFacts.aspx

UDİ üzrə aralıq hesabatlar üçün veb portal:
https://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/UPRImplementation.aspx

UDİ üzrə təqdimatlarla bağlı yardım xidməti üçün e-poçt ünvanı:

ohchr-uprsubmissions@un.org

Vətəndaş Cəmiyyəti təşkilatları üçün e-poçt ünvanı: ohchr-civilsociety@un.org

**SMDT ilə əlaqə:**

**E-poçt ünvanı:** emc.az2001@gmail.com
smdt.legal@gmail.com

**Telefon:** +9945550 333 46 74